Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyası
Azərbaycan Qeyri-Hökumət Təşkilatları Koalisiyası

For Improving Transparency in Extractive Industries
The Coalition of Azerbaijan Non-Goverment Organization

# İNFORMASİYA BÜLLETENİ

## №: 22 , sentyabr 2009

**Redaktor:** Dünya Sakit ; **Məsul katib:** Suheylə Cəfərova ; **Tərcüməçi:** Nərmin Mirzəyeva
**Ünvan:** AZ1065, Bakı, C.Cabbarl kuc. 44, Caspian Plaza 3, 9-cu mərtəbə
**Tel:** 598 44 31, **Faks:** 598 44 31 ; **Mob.:** 357 04 62 ; **E-mail:** office@eiti-az.org

# Koalisiya nümayəndəsi qızıl hasilatçıları ilə görüşüb




İyulun 30-da Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyasının Gəncə şöbəsinin əlaqələndiricisi Aslan Vəliyev Gədəbəy rayonunda olaraq, qızıl hasilatı ilə məşğul olan Azərbaycan Beynəlxalq Mədən Əməliyyat Şirkətinin ictimaiyyətlə əlaqələr və icma inkişaf proqramı üzrə rəhbəri Mahmud Ələkbərovla görüşüb. Əlaqələndiricinin təşəbbüsü ilə baş tutan görüşdə, həmçinin Gədəbəy rayon Arıxdam kəndinin bələdiyyə sədri və kənd icra nümayəndəsi də iştirak ediblər.

Görüşdə Mədən Sənayesində Şəffaflıq Təşəbbüsünün inkişaf etdirilməsi sahəsində tərəflərin rolu, həmçinin icma inkişaf proqramlarının icrasında əhalinin maarifləndirilməsi yolu ilə ictimai maraqların dəstəklənməsi prosesində əməkdaşlıqə məsələləri müzakirə olunub. Qərara alınıb ki, Koalisiya üzvlərinin, Gədəbəy rayon İcra Hakimiyyəti Aparatının (bu haqda İH aparatının məsul şəxsləri ilə razılıq əldə edilib), ABMƏŞ və Gədəbəy rayonunda fəaliyyət göstərən Vətəndaş cəmiyyətin nümayəndələrinin, qızıl istehsalı nəticəsində təsir altına düşmüş Arıxdam kənd bələdiyyəsinin və İcra nümayəndəsinin iştirakı ilə dəyirmi masa təşkil olunsun.

# Çoxtərəfli Qrupun yaradılması prosesi ləngiyir

Azərbaycanda Mədən Sənayesində Şəffaflıq Beynəlxalq Təşəbbüsünün (EİTİ) icrası prosesində iştirak edən tərəflərin (neft-qaz sektorunda çalışan şirkətlər, Hökumət komissiyası və İctimai Birliklərin Mədən Sənayesində Şəffaflığın Artırılması (MSŞA) Koalisiyası) iştirakı ilə yaradılacaq Çoxtərəfli Qrupun formalaşdırılması prosesi ləngiyir. Xatırladaq ki, Çoxtərəfli Qrupun formalaşdırılması dəyərləndirmə prosesindən sonra Azərbaycana tamhüquqlu üzv statusunun verilməsi zamanı Beynəlxalq EİTİ İdarə Heyəti qarşısında Azərbaycan hökumətinin üzərinə götürdüyü öhdəliklərdən biridir.

Dəyərləndirməni aparan validatorun (Coffey İnternational şirkəti) Azərbaycan hökumətinin razılaşmadığı bu tövsiyəsinin sentyabr ayınadək icra olunması nəzərdə tutulurdu. Bu məqsədlə Memorandum tərəflərinin apreldə keçirilən iclasında üçtərəfli İşçi qrupunun yaradılması və bütün təkliflərin qrup vasitəsilə uzlaşdırılması qərara alınmışdı. Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyasını bu qrupda təmsil edən Şura üzvü Oqtay Gülalıyevin verdiyi məlumata görə, ötən müddət ərzində İşçi qrupun iki toplantısı keçirilib, bir sıra məsələlərlə bağlı razılıq əldə olunub, bəzi istiqamətlərdə müzakirələrin davam etdirilməsi qərara alınıb: “Qərara alınmışdı ki, biz (Koalisiyanın qrupdakı nümayəndələri) Çoxtərəfli Qrupun fəaliyyətini tənzimləyən sənəd layihəsini hazırlayıb digər tərəflərə təqdim edək və müzakirələr aparılsın. Biz bu sənəd layihəsini hazırlayıb EİTİ Katibliyinə təqdim etdik. Artıq xeyli vaxt keçib, amma onunla bağlı müzakirələr nədənsə ləngiyir.”

Hökumət komissiyasının sədri Şahmar Mövsümov media təmsilçilərinin Çoxtərəfli Qrupun formalaşdırılması prosesinin nə vaxt yekunlaşacağına dair sualına konkret cavab verməyib. O, “bütün tərəflərin iştirakı ilə işçi qrup yaradılıb, işlər davam etdirilir” deməklə kifayətlənib. Qeyd edək ki, Azərbaycan auditor şirkətin tövsiyələrini Beynəlxalq EİTİ İdarə Heyətinin Bakıda keçiriləcək iclasına qədər yekunlaşdırmalıdır. İlk əvvəl bu iclasın sentyabrda keçirilməsi nəzərdə tutulsa da, sonradan oktyabrın 14-15-nə təxirə salınıb.

# Koalisiyanın onuncu hesabatla bağlı rəyi EİTİ Katibliyinə təqdim olunub

İyunun 12-də Azərbaycanda Mədən Sənayesində Şəffaflıq Beynəlxalq Təşəbbüsünün icrası çərçivəsində sayca 10-cu hesabatın yekunları bəlli olub. Həmin gün Təşəbbüsün icrasında iştirak edən tərəflərin (Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyası (MSŞA), Hökumət komissiyası və neft-qaz sektorunda çalışan şirkətlər) nümayəndələrinin toplantısı keçirilib. Toplantıda hökumət vi şirkətlərin 2008-ci il üzrə ödənişlərlə bağlı məlumatlarını tutuşduran Moor ənd Stifens auditor şirkətinin rəyi tərəflərə təqdim olunub.

Tərəflər arasında əldə edilmiş razılaşmaya uyğun olaraq, şirkətin rəyi və ödənişlərə dair məlumatlar ictimaiyyətə MSŞA Koalisiyasının rəyi ilə birlikdə açıqlanmalıdır. İyun ayı ərzində QHT qanunvericiliyinə dəyişikliklərin edilməsi ilə bağlı gərginliklərin yaşanması üzündən Koalisiya Şurasının qərarı ilə yaradılmış ekspertlərdən ibarət İşçi qrupu qeyd olunan rəyi iyul ayında hazırlayaraq, EİTİ üzrə Katibliyə təqdim edib. Növbəti mərhələdə hesabatlar, auditor şirkətinin və Koalisiyanın rəyi tərəflərin iştirakı ilə müzakirə olunacaq və 2008-ci il üzrə məlumatlar ictimaiyyətə açıqlanacaq.

# Konqoda şəffaflıq hərəkatının fəalı həbs olunub

İyulun 24-də Konqo Respublikasının Katanqa şəhərində PWYP-nin üzvü olan İnsan Hüquqlarının Müdafiəsi uzrə Afrika Birliyinin(ASADHO) sədri Golden Misabiko  həbs olunub. O, Lubumbaşi həbsxanasında saxlanılır. İyulun 24-də ASADHO sədrinin müavini Timothee Mbuya da həbs olunsa da, elə həmin gün azadlığa buraxılıb.

Həbs olunan hər iki şəxs Lubumbaşidə Konqo kəşfiyyat agentliyi tərəfindən sorğuya çəkiliblər. Misabiko "milli təhlükəsizliyə zərbə vurmaqla  dövlət quruluşunu sarsıtmaqda" ve "böhtan bəyanatlar verməkdə" günahlandırılır. Qeyd edək ki, Konqo Demokratik Respublikası Mədən Sənayesində Şəffaflıq Beynəlxalq Təşəbbüsünün  (EİTİ) icrasına qoşulan 21 Afrika ölkəsindən biridir. ASADHO EİTİ-ın Konqoda icrası prosesində aktiv iştirak edın vətəndaş cəmiyyəti institutlarındandır. İnsan haqları və şəffaflıq müdafiəçisi olan Misabiko yerli vətəndaş cəmiyyəti institutları ilə birgə Katanganın mis və kobaltla zəngin əyalətində mineral sərvətlərin idarə olunmasında şəffaflıq və hesabatlılığın artırılması  məqsədilə təşkil olunmuş  kampaniyada iştirak edib. Misabiko insan haqlarının qorunması sahəsində  fəaliyyətlərinə görə əvvəllər də bir neçə dəfə həbs və təhdid olunub.

İyulun 12-də ASADHO/KATANGA Shinkolobvedə yerləşən uran mədəni ilə bağlı hesabat açıqlayıb. Bu hesabatda hökumət qeyri-leqal və təhlükəli mədən hasilatı işinə dəstək verdiyinə və fransız nuvə qrupu AREVA ilə qeyri-şəffaf  şəraitdə müqavilə imzalamasına görə ittiham olunub. PWYP Konqo hökumətini Golden Misabikonu təcili azadlığa buraxmağa və ona qarşı büün ittihamların dayandırılmasna çağırıb. Koalisiya həmçinin Konqo hökumətindən  ölkədə mineral ehtiyatların idarə olunması üzrə debatlarda vətəndaş cəmiyyətinin azad iştirakını təmin etməyi və insan haqları müdafiəçilərinin təhlükəsizliyini təmin etməyi tələb edib.

# Koalisiya qaz sektorundakı dəyişikliklərə etiraz edir

İctimai Birliklərin "Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyası ölkənin qaz sektorundakı proseslərlə bağlı açıqlama ilə çıxış edib. Koalisiya Şurasının iyulun 6-da yaydığı açıqlamada Tarif Şurasının qərarı ilə 2009-cu il iyul ayının 1-dən etibarən əhali istehlakçı qrupuna satılan qazın hər 1000 kubmetrinin qiymətinin 2 dəfədən də çox artırılaraq 100 manat müəyyənləşdirilməsi, daha sonra isə dövlət başçısının sərəncamı ilə "Azəriqaz" Qapalı Səhmdar Cəmiyyətinin ləğv edilərək Azərbaycan Dövlət Neft Şirkətinin tabeliyinə verilməsinə Koalisiyanın etirazı əksini tapıb. Belə ki, baş verən bu dəyişiklikləri bazar iqtisadiyyatının tələbləri, səmərəli idarəetmə, şəffaflıq, hesabatlılıq prinsipləri baxımından qiymətləndirən Koalisiya ekspertləri aşağıdakı qənaətə gəliblər:

1.Tarif Şurası haqqında Əsasnamənin 2.1.9-cu bəndinə görə, qiymətlərin dövlət tənzimlənməsi üzrə həyata keçirilən işlər barədə kütləvi informasiya vasitələrinə tənzimləmənin zəruriliyi, məqsədi və mümkün nəticələri barədə düzgün məlumat verilməlidir. Bu məlumatlar əvvəlcədən çatdırılmalıdır ki, əhali istehlakçı qrupu ailə büdcələrinin planlaşdırılmasında və eyni zamanda o zamana qədər olan borcların ödənilməsində bunları nəzərə alsın. Lakin bu proses gizlin aparılmaqla aşkarlıq pozulub, qabaqcadan ictimai məlumatlandirma öhdəliyi yerinə yetirilməyib. Koalisiya hesab edir ki, Əsasnamənin bu maddəsinin tələbləri tam şəkildə yerinə yetirilməmiş, bu prosesin şəffaflığı pozulmuş və eyni zamanda tənzimləmənin məqsədləri və mümkün nəticələri barədə əhaəli istehlakçı qrupu vaxtında və düzgün məlumatlandırılmamışdır.

2. Əsasnamənin 3.1.5. bəndinə görə qiymətlərin iqtisadi cəhətdən əsaslılığını, səmərəliliyini, bazarın tələblərinin və əhalinin alıcılıq qabliyyəti baxımından optimallığını müəyyənləşdirmək üçün araşdırmalar və təhlillər aparılmalıdır. Koalisiya hesab edir ki, Əsasnamənin bu maddəsinin tələbləri də pozulmuş, təhlil və araşdırmalar səthi aparılmış və hətta bu nəticələr belə qiymət bahalaşması ilə bağlı qərarın əsaslandırılmasında nəzərə alınmamışdır. Belə ki, qlobal maliyyə böhranının Azərbaycan iqtisadiyyatına neqativ təsirlərinin nəticəsi olaraq xüsusilə də mədən çıxarma sənayesində iş yerlərinin ixtisarı, işləyənlərin ödənişsiz məzuniyyətə çıxarılması, əmək haqlarının gecikdirilməsi və aşağı salınması halları müşahidə olunmuş və hətta bu hal metallurgiya və kimya sənayesində kütləvi xarakter almışdır. Eyni proseslər emal sənayesində, tikinti biznesində də müşahidə olunduğundan bu, bütövlükdə respublika üzrə əhalinin alıcılıq qabliyyətinin kəskin aşağı düşməsini şərtləndirmişdir. Bu isə onu deməyə əsas verir ki, Əsasnamə tələblərinə uyğun olaraq əhalinin alıcılıq qabiliyyəti düzgün optimallaşdırılsaydı, son nəticədə qiymətlərin bahalaşması deyil, onun ucuzlaşması qərarı verilməli idi.

Tarif Şurasının məlum qərarının ardınca "Azəriqaz" QSC-nin ləğv edilməsi və onun ARDNŞ-yə birləşdirilməsi ilə bağlı prezident sərəncamı da Koalisiya ekspertləri tərəfindən islahatlar, hesabatlılıq və şəffaflıq baxımından qiymətləndirilib. Koalisiya ekspertlərinin rəyinə görə, bu sərəncamın verilməsi enerji sektorunun islahatlari proqramına ziddir və bu sektorun yenidən qurulması işində əsaslı əngəldir.: "Odur ki, Koalisiya bu birləşməni ziyanlı sayır və geriyə addım kimi qiymətləndirir. Koalisiya hesab edir ki, enerji sektorunda fəaliyyət göstərən dövlət müəssisələrinin islahatlarının əsas qayəsini hər bir qurumun ("Azəriqaz", "Azərenerji", ARDNŞ) ayrıca yenidən strukturlaşması və hər bir istiqamət üzrə hasilat, emal və satış şəbəkələrinin müstəqil təsərrüfat vahidləri olaraq korporativ şəkildə idarəedilməsi təşkil etməlidir. Bu halda həmin sektorların müxtəlif mərhələləri (hasılat, emal və satış) üzrə beynəlxalq standartlara uyğun gələn uçot, hesabat və audit işinin təşkili, eləcə də səmərəli idarəetmə modelinin tətbiqi yolu ilə şəffaflığın, hesabatlılığın artırılması mümkündür. Koalisiya hazırkı qaydada birləşmənin mədən çıxarma sənayesində şəffaf və hesabatlı uçot və statistika sisteminin təşkilində problemlər yaradacağından dərin narahatlığını ifadə edir.

Bütün bunlara əsasən Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyası olaraq Azərbaycan Respublikası Prezidentindən bu narahatlıqları nəzərə almağı və öz səlahiyyətlərindən istifadə edərək qazın qiymətinə və birləşmə məsələsinə yenidən baxmağı xahiş edirik."

# Şəffaflıq Təşəbbüsü üzrə on birinci hesabatları "Moore Stephens" tutuşduracaq



İyulun 15-də Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsü (MHŞT) üzrə Hökumət Komissiyası, Azərbaycanın hasilat (neft və qaz) sənayesində fəaliyyət göstərən yerli və xarici şirkətlər və Mədən Sənayesində Şəffaflığın Artırılması (qeyri-hökumət təşkilatları) Koalisiyası arasında imzalanmış Qarşılıqlı Anlaşma Memorandumuna uyğun olaraq təsis edilən Seçim Qrupunun növbəti iclası keçirilib. İclas zamanı Azərbaycanın hasilat sənayesində fəaliyyət göstərən yerli və xarici şirkətlərin Azərbaycan Respublikası hökumətinə ödənişləri və Azərbaycan Respublikası hökumətinin yerli və xarici şirkətlərdən daxiolmaları barədə növbəti – on birinci hesabat mərhələsi üzrə hesabatlarını (2009-cu ilin ilk 6 ayı) tutuşduraraq təhlil edəcək audit şirkətinin seçilməsi məqsədilə müsabiqə keçirilib. Müsabiqəyə təqdim olunan təklifləri müzakirə edən Seçim Qrupu auditin "Mur Stefens" (Moore Stephens) şirkəti tərəfindən keçirilməsinə qərar verib.

Qeyd edək ki, müsabiqə iyunun 29-da elan olunmuş və orada iştirak üçün Azərbaycanda fəaliyyət göstərən beynəlxalq miqyasda tanınmış 4 nüfuzlu audit şirkətinə (Deloitte&Tuch, PricewaterhouseCoopers, Ernst & Young və Moore Stephens) dəvət göndərilmişdi.

# Qubad İbadoğlu yenidən Koalisiyanın əlaqələndiricisi seçilib



Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyasının Şurasına yeni əlaqələndirici seçilib. Şuranın iyulun 4-də keçirilən iclasında ötən ilin dekabrından əlaqələndirici vəzifəsində çalışan Azər Mehtiyev istefa verdiyini elan edib. Şura A.Mehtiyevin istefasını qəbul edərək, 7 ay ərzində əlaqələndirici kimi üzərinə düşən işlərin öhdəsindən layiqincə gəldiyinə görə ona təşəkkür elan edib.

Koalisiya əsasnaməsinə uyğun olaraq, həmin iclasda Şura üzvü Qubad İbadoğlunun əlaqələndirici vəzifəsinə namizədliyi irəli sürülüb. Keçirilən səsvermə zamanı Q.İbadoğlu yekdilliklə Şuranın əlaqələndirici seçilib.

Qeyd edək ki, Q.İbadoğlu 2007-ci ilin yanvarında, daha sonra isə həmin ilin noyabrında Koalisiya Şurasının əlaqələndiricisi seçilib. 2008-ci ilin dekabrında tədqiqat məqsədilə 6 aylığa ABŞ-a getdiyi üçün əlaqələndirici vəzifəsinə A.Mehtiyev seçilmişdi.

# bp ilə Dövlət Neft Şirkəti arasında memorandum imzalanıb

Londonda Xəzər dənizinin Azərbaycan sektorunda "Şəfəq" və "Asiman" perspektiv strukturlarının birgə geoloji-kəşfiyyatı və işlənməsi məqsədilə bp və ARDNŞ arasında anlaşma memorandumu imzalanıb.

bp şirkətinin Bakı ofisinin mətbuat xidmətinin yaydığı məlumata görə, Azərbaycanın dəniz ərazilərinin hamısının tam işlənməsinin təmin edilməsi üzrə hökumət planının bir hissəsi kimi, bu memorandum Böyük Britaniya şirkətinə Bakıdan təxminən 125 kilometr cənub-şərqdə yerləşən blokun geoloji-kəşfiyyatı və işlənməsi üzrə hasilatın pay bölgüsü sazişi bağlamaq üçün danışıqlar aparmağa müstəsna hüquq verir. Anlaşma memorandumu Azərbaycan Prezidenti İlham Əliyevin və Böyük Britaniyanın baş naziri Qordon Braunun iştirakı ilə Londonda ARDNŞ-nin prezidenti Rövnəq Abdullayev və bp-nin geoloji-kəşfiyyat və hasilat üzrə baş icraçı direktoru Əndi İnqlis tərəfindən imzalanıb.

Qeyd edək ki, bu blok təxminən 1100 kvadrat kilometr ərazini əhatə edir və orada indiyədək heç bir geoloji-kəşfiyyat işi aparılmayıb. Blok dənizin dərinsulu hissəsində suyun dərinliyinin təxminən 650-800 metr olduğu bir ərazidə yerləşir və kollektorun dərinliyi təxminən 7000 metrdir.

# bp-Azərbaycan şirkətinə yeni prezident təyin olunub



Sentyabrın 1-dən etibarən «bp Azərbaycan» şirkətinə Azərbaycan vətəndaşı olan **Rəşid Cavanşir** rəhbərlik edəcək. Şirkətin əvvəlki prezidenti Bill Şreyder Rusiyada fəaliyyət göstərən TNK-BP-nin baş əməliyyat direktoru təyin olunub.

bp şirkətinin yaydığı məlumata görə, Rəşid Cavanşirin rəhbərlik edəcəyi işlər bp-nin Azərbaycan və Gürcüstandakı bütün fəaliyyətini, həmçinin Türkiyədəki ixrac əməliyyatlarımızı əhatə edir. R.Cavanşirin «bp-Azərbacan»ın prezidenti təyin olunmasını elan etmək məqsədilə av qustun 5-də bp-nin axtarış-kəşfiyyat və hasilat üzrə baş icraçı direktoru Endi İnqlis Azərbaycana gəlib. Səfər zamanı o, Azərbaycan prezidenti İlham Əliyevlə görüşüb və R.Cavanşiri dövlət başçısına təqdim edib.

Qeyd edək ki, Rəşid Cəmil oğlu Cavanşir 1951-ci il iyul ayının 17-də Bakıda anadan olub. Azərbaycan Elmlər Akademiyası və Neft Akademiyasında elmi-tədqiqat və müəllimlik fəaliyyəti ilə məşğul olub. 1988-ci ildən 1995-ci ilə kimi Elmlər Akademiyasının Dərin Neft-qaz Yataqları Problemləri İnstitutunun elmi hissəsinin direktoru vəzifəsində çalışıb. AMEA-nın müxbir üzvüdür.

1995-ci ildən bp şirkətində işə başlayıb. Müxtəlif dövrlərdə "BP Exploration (Shah Deniz) Ltd." şirkətinin prezidenti, bp şirkətinin Xəzər regionu, Rusiya, Yaxın Şərq və Afrika üzrə ofisinin vitse-prezidentinin baş müşaviri və sair vəzifələrdə çalışıb. 2003-2006-cı illərdə Aberdində bp-nin Şimal dənizinin cənub hissəsindəki biznesinə rəhbərlik edib. Həmin ilin avqustunda yenidən bp-Azərbaycana qayıdıb, BTC Ko-ya rəhbərlik edib. Yeni təyinata qədər o, şirkətin quruda əməliyyatlar üzrə vitse-prezidenti vəzifəsində çalışırdı.

# Dövlət Neft Fondunun 2008-ci il büdcəsi 2 faiz kəsirlə icra olunub



İyunun 11-də Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) Müşahidə Şurasının növbəti iclası keçirilib. İclasda Azərbaycan Respublikasının baş naziri Artur Rasizadə yenidən ARDNF Müşahidə Şurasının sədri seçilib. Onun sədrliyi ilə keçirilən iclasda həmçinin Fondun 2008-ci ildə fəaliyyəti haqqında illik hesabatı, maliyyə fəaliyyətinin auditinin nəticələri, ARDNF-nin 2008-ci il büdcəsinin icrası məsələlərinə baxılıb.

Müşahidə Şurası Neft Fondunun İcraçı direktorunun təqdim etdiyi Fondun 2008-ci ildə fəaliyyəti haqqında illik hesabatına, Fondun 2008-ci ildə maliyyə fəaliyyəti haqqında müstəqil auditorun (“Deloyt ənd Tuş” şirkətinin) hesabatına və rəyinə baxaraq onları məqbul hesab edib. İclasda Fondun 2008-ci il büdcəsinin icrası layihəsinin təsdiq olunmaq üçün Azərbaycan Respublikası Prezidentinə təqdim edilməsi qərara alınıb.

İyunun 30-da isə Prezidentin imzaladığı sərəncamla Neft Fondunun 2008-ci il büdcəsinin icrası gəlirlər 11 864 648,1 min manat, xərclər 4 291 751,4 min manat məbləğində olmaqla və ya Dövlət Neft Fondunun 2008-ci il büdcəsində nəzərdə tutulana müvafiq olaraq 17% artıq gəlirlə və büdcə xərcləri üzrə 2 % kəsirlə təsdiq edilib. Sərəncama görə, ötən il DNF-nin 11 526 985,7 min manat Azərbaycan Respublikasının payına düşən karbohidrogenlərin satışından əldə edilən xalis gəlirlərdən, 97 234,6 min manat neft-qaz layihələrinin həyata keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının payına düşən dividendlərdən (BTC layihəsi üzrə), 3 567,0 min manat arbohidrogen ehtiyatlarının işlənməsi ilə əlaqədar sərmayəçilər tərəfindən müqavilə sahəsində istifadə üçün ödənilən akrhesabı ödənişlərdən, 165,7 min manat neft və qazın Azərbaycan Respublikasının ərazisi ilə ötürülməsindən, 2 822,2 min manat neft-qaz sazişlərinin imzalanması və ya icrası ilə bağlı Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə və ya səlahiyyətli dövlət orqanına sərmayəçilər tərəfindən ödənilən bonuslardan (mükafatlar), 231 171,3 min manat Dövlət Neft Fondunun vəsaitinin idarə olunmasından, 2 701,6 min manat digər gəlir və daxilolmalardan ibarət olmaqla, 11 864 648,1 min manat gəliri olub.

Xərclərə gəlincə, ötən il DNF-dən 3 800 000,0 min manat dövlət büdcəsinə transfert, 144 999,4 min manat qaçqınların və məcburi köçkünlərin sosial-məişət və məskunlaşma məsələlərinin həllinə, 211 819,5 min manat Oğuz-Qəbələ zonasından Bakı şəhərinə su kəmərinin çəkilməsi layihəsinin maliyyələşdirilməsinə, 120 600,0 min manat Samur-Abşeron suvarma sisteminin yenidən qurulması layihəsinin maliyyələşdirilməsinə, 5 271,1 min manat Bakı-Tbilisi-Qars yeni dəmir yolu layihəsinin maliyyələşdirilməsinə, 2 295,6 min manat “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramının” maliyyələşdirilməsinə, 6 765,8 min manat Fondun idarə edilməsinə olmaqla, ümumilikdə 4 291 751,4 min manat xərclənib.

# İlk yarımildə Neft Fondundan büdcəyə illik məbləğin 54 faizi həcmində vəsait transfert edilib




İyulun 24-də Azərbaycan Dövlət Neft Fondunun (ADNF) icraçı direktoru Şahmar Mövsümov 2009-cu ilin ilk 6 ayının yekunlarına həsr olunmuş mətbuat konfransı keçirib. Konfransda icraçı direktor bildirib ki, yanvar-iyun ayları ərzində Fondun büdcə gəlirləri 3 156,3 milyon manat, büdcə xərcləri isə 2 685,7 milyon manat təşkil edib.

Hesabat dövründə ADNF-nin neft sazişlərinin həyata keçirilməsindən olan gəlirləri 2 989,3 milyon manat, o cümlədən mənfəət neftinin və qazının satışından 2 907,6 milyon manat, tranzit gəlirləri 5 milyon manat, Bakı-Tiflis-Ceyhan Əsas İxrac Boru Kəməri layihəsi üzrə dividentlərdən 75,5 milyon manat təşkil edib. Dünya bazarında neftin qiymətinin düşməsi nəticəsində yanvar-iyun aylarında ADNF-nin (ARDNF) mənfəət neftindən daxilolmalar proqnozu 42% icra olunub. Ş. Mövsümovun sözlərinə görə, Fondun büdcəsi tərtib olunarkən neftin 1 barelinin qiyməti 70 ABŞ dollarından götürüldüyü halda, ötən 6 ayda orta qiymət 48 dollar təşkil edib. İcraçı direktor onu da vurğulayıb ki, ilin əvvəlində Fondun xərcləri gəlirlərini üstələdiyi üçün aktivlərinin ümumi həcmi azalda da, mart ayından bu proses artımla əvəz olunub.

6 ayda Fondun vəsaitlərinin idarə olunmasından əldə olunan gəlir 167 milyon manat olub. Valyuta məzənnələrinin dəyişməsindən yaranan müsbət fərqlə bağıl Fondun büdcədənkənar gəlirləri 100,5 milyon manat təşkil edib.

Ş.Mövsümovun sözlərinə görə, hesabat dövründə ADNF-nin 2009-cu il büdcəsinin icrası çərçivəsində 2,530 milyard manat vəsait dövlət büdcəsinə transfert edilib. Bu, ilin ilk yarısı üçün nəzərdə tutulan həcmdən 4 faiz çoxdur. İcraçı direktor bildirir ki, birinci yarımildə transferin həcmi çox olsa da, ilin sonunadək Fondun büdcə xərclərində nəzərdə tutulan məbləğdən kənara çıxılmayacaq: “Transfertlə bağlı Fondla Maliyyə Nazirliyi arasında operativ əlaqə qurulub. Biz illik transfert həcminin aylar üzrə bölgüsünü aparmışıq. Buna baxmayaraq, ehtiyac olduqda vəsaitləri daha tez köçürürük. Lakin bu zaman illik büdcədən kənara çıxılmır. Düzdür, bu ilin 1-ci yarısında ödənişlər bir qədər artıq olub. Amma ilin sonuna ARDNF-dən dövlət büdcəsinə transfertin məbləği əvvəlcədən nəzərdə tutulduğu kimi, 4 milyard 915 milyon manat olacaq”.

Yanvar-iyun ayları ərzində qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdırılması və sosial-məişət vəziyyətinin yaxşılaşdırılması üzrə tədbirlərin həyata keçirilməsinə Fonddan 20,2 milyon manat, Samur-Abşeron suvarma sisteminin yenidən qurulması və Oğuz-Qəbələ zonasından Bakıya su kəmərinin çəkilişi layihələrinin maliyyələşdirilməsi məqsədilə isə müvafiq olaraq 61,9 milyon manat və 69,5 milyon manat vəsait ayrılıb. “Bakı-Tiflis-Qars dəmir yolu” layihəsinin maliyyələşdiirlməsinə isə 1,1 milyon manat yönəldilib. “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə dövlət proqramı”nın maliyyələşməsinə 1,3 milyon ayrılıb (hazırda Fondun maliyyəsi ilə əcnəbi ölkələrdə 200 azərbaycanlı tələbə təhsil alır). İlk yarımildə Fondun idarə edilməsilə bağlı xərcləri 2,7 milyon manat olub.

Bu il iyulun 24-nə ADNF-nin aktivləri 12,187 milyard dollar təşkil edib.

# İlk Azərbaycan qızılı dünya bazarına çıxarılıb



İyulun 21-dən etibarən Azərbaycan dünya bazarına qızıl ixracına başlayıb. "İtv.az"ın məlumatına görə, «Gədəbəy» yatağından qızıl ilkin emal üçün İsveçrəyə göndərilib. Qızıl hasilatı ilə məşğul olan Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin prezidenti Rza Vəzirinin verdiyi məlumata görə, ilk dəfə xaricə 1200 unsiya və ya 36 kiloqram qızıl göndərilib. Avqust ayında dünya bazarına 2000 unsiya, sentyabrdan isə 4000-4500 unsiya, yəni 120-130 kiloqram qızıl çıxarılması gözlənilir. Əldə olunmuş razılaşmaya görə, Azərbaycan qızılı İsveçrədə, dünyanın ən məşhur zavodlarından olan MKS-də emal ediləcək, qızılın tərkibi lazımi standartlara çatdırılandan sonra dünya bazarına çıxarılacaq: "İndi bizim bazara çıxardığımız qızılın təxmini 92 faizi qızıl, qalanı gümüş və başqa metallardır. Orada afinac olandan sonra qızıl olur 99, 999 əyarlı - eyni həmən qızıl da bazarda satılır».

Azərbaycan qızılının satış qiyməti dünya bazarındakı vəziyyətdən asılı olacaq. Əgər bazarda qiymət kəskin aşağı düşsə, Azərbaycan tərəfi ziyana düşməmək üçün satışları qısa müddətə dayandıra da biləcək. İndi birjalarda qızılın unsiyası 945-950 dollar arasındadır. Bu qiymətlərlə götürəndə xaricə göndərilən qızılın ilk partiyasının qiyməti 1 milyon 150 min dollara çatır.

Xatırladaq ki, Azərbaycanda qızıl «Gədəbəy» yatağından çıxarılır. Araşdırmalar göstərib ki, bu yataqda 22 tona yaxın qızıl var. Başqa yataqlarda da kəşfiyyat işləri gedir. İlin sonuna kimi Tovuz rayonunda yerləşən Qoşa yatağında da işlər başlanacaq və artıq gələn il burdan çıxarılan qızıl dünya bazarına yola salınacaq. Daha sonra isə Naxçıvandakı iki yataqdan hasilatın başlanması nəzərdə tutulur.

Qeyd edək ki, Azərbaycan Hasilat Sənayesində Şəffaflıq Beynəlxalq Təşəbbüsünün ilk tamhüquqlu üzvü statusunu alan ölkədir. Bu Təşəbbüs ölkənin bütün mədən hasilatı sahələrində hesabatlılığın təmin olunmasını nəzərdə tutur. Qızıl hasilatının başlanması bu sahənin də Təşəbbüsə cəlbini zəruri edir. Təşəbbüsün icrasında iştirak edən Hökumət komissiyasının sədri, Dövlət Neft Fondunun icraçı direktoru Şahmar Mövsümovun verdiyi məlumata görə, qızıl hasilatından hökumət ilk gəlir əldə edən kimi bu sahə Təşəbbüsə cəlb ediləcək: "Bilirsiniz ki, biz MHŞT çərçivəsində hesabatlığa yalnız neft-qaz hasilatı şirkətlərini cəlb etmirik. Hər 6 aydan bir hesabatlar hazırlanarkən Ekologiya və Təbii Sərvətlər Nazirliyi vasitəsilə mədən hasilatı sənayesindən əldə edilən gəlirlər barədə məlumat alırıq. Hazırda biz gözləyirik ki, bu şirkətin (ABMƏŞ) hasilatı başlansın və Azərbaycan hökuməti ilk gəlirlərini əldə etsin. Bu zaman biz o şirkəti də Təşəbbüsə cəlb edəcəyik".